COMMITTEE OF MINISTERS
COMITÉ DES MINISTRES

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

**MINISTERS' DEPUTIES**
**DÉLÉGUÉS DES MINISTRES**

Resolutions
Résolutions

**CM/Res(2020)2**

22/01/2020

# Resolution on the Council of Europe youth sector strategy 2030

*Unofficial translation into Azerbaijani*

# Résolution relative à la Stratégie du Conseil de l'Europe pour le secteur jeunesse à l'horizon 2030

*Traduction non-officielle en azeri*

# Avropa Şurasının 2030 gənclər sektoru strategiyası üzrə CM/Res(2020)2 saylı Qətnaməsi

*© Council of Europe, original English and French versions*

*Text originated by, and used with the permission of, the Council of Europe. This unofficial translation is published by arrangement with the Council of Europe, but under the sole responsibility of the translator.*

* * * * *

*© Conseil de l'Europe, versions originales en anglais et français*

*Le texte original provient du Conseil de l'Europe et est utilisé avec l'accord de celui-ci. Cette traduction est réalisée avec l'autorisation du Conseil de l'Europe mais sous l'unique responsabilité du traducteur.*

COMMITTEE OF MINISTERS
COMITÉ DES MINISTRES
COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

| | | | |
|---|---|---|---|
| **NAZİRLƏRİN NÜMAYƏNDƏLƏRİ** | Qətnamələr | **CM/Res(2020)2** | 22 yanvar 2020-ci il |

# Avropa Şurasının 2030 gənclər sektoru strategiyası üzrə CM/Res(2020)2 saylı Qətnaməsi

*(Nazirlərin nümayəndələrinin 1365-ci iclası zamanı Nazirlər Komitəsi tərəfindən 22 yanvar 2020-ci ildə qəbul edilib)*

Nazirlər Komitəsi,

Avropa Şurasının dövlət və hökumət rəhbərlərinin 2005-ci ilin ay ayında Varşavada keçirilmiş 3-cü zirvə toplantısında qəbul edilmiş və xüsusən də “Avropa Şurası gənclər sahəsindəki öz xüsusi mövqeyini daha da genişləndirəcək” dediyi bəyanatı və fəaliyyət planını nəzərə alaraq;

Nazirlər Komitəsi tərəfindən 2019-cu ilin may ayında Helsinkidə Avropa Şurasının yaradılmasının 70-ci ildönümü münasibətilə keçirilmiş 129-cu Sessiyasında qəbul edilmiş və xüsusən də “Cəmiyyətlərimizi təhdid edən yeni çağırışlara qarşı çıxa bilmək üçün Avropanın birliyinə hər zamankından daha çox ehtiyac var. Üzv dövlətlərdə ortaya çıxan məsələlərə tez və səmərəli şəkildə cavab vermək Təşkilat üçün mühümdür. (…) Bu məqsədlə biz Avropa Şurasının pan-Avropa əməkdaşlığı üçün səmərəli çərçivə kimi unikal rolunu gücləndirməyə söz veririk” dediyi bəyanatı nəzərə alaraq;

Müəlliflərin həmçinin “vətəndaş cəmiyyətinin əsas rolu”nu tanıdığı və “öhdəliyimizin bütün səviyyələrində vətəndaş cəmiyyəti ilə anlamlı və şəffaf dialoq” aparmağa söz verdiyi eyni bəyanatı nəzərə alaraq;

Bu perspektivdə gənc Avropalıların və Gənclər Məsələləri üzrə Birgə Şurada gənclərlə bağlı məsələlərdən məsul dövlət orqanlarının səslərini bir araya gətirən Avropa Şurasının gənclər sahəsindəki birgə idarəetmə sisteminin vacibliyini iştirakçı demokratiyanın canlı misalı olaraq vurğulayaraq;

Avropa Mədəniyyət Konvensiyası və Avropa Şurasının Milli azlıqların qorunması haqqında çərçivə Konvensiyasını nəzərə alaraq;

Gənclərdən məsul olan Nazirlərin 8-ci Avropa Şurası Konfransının “Avropa Şurası gənclər siyasətinin gələcəyi: Təqvim 2020” adlanan və 2008-ci ilin oktyabrında Kiyevdə qəbul edilmiş Bəyanatını və Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən 25 noyabr 2008-ci ildə qəbul edilmiş CM/Res(2008)23 gənclər siyasəti üzrə Qətnaməsini nəzərə alaraq;

Təqvim 2020-dən əldə edilən uğurları və çıxarılan dərsləri unutmayaraq;

Avropa Şurasının gənclər siyasəti sahəsində əldə etdiyi ən böyük nailiyyəti və həmçinin Nazirlər Komitəsinin CM/Rec(2019)4 üzv dövlətlərə həddi-büluğa çatan gənc qaçqınların dəstəklənməsi üzrə Tövsiyəsini, Nazirlər Komitəsinin CM/Rec(2017)4 üzv dövlətlərə gənclərlə iş üzrə Tövsiyəsini, Nazirlər Komitəsinin CM/Rec(2016)7 üzv dövlətlərə gənclərin hüquqlara çıxışı üzrə Tövsiyəsini, Nazirlər Komitəsinin CM/Rec(2015)3 üzv dövlətlərə problemli məhəllələrdən olan gənclərin sosial hüquqlara çıxışı üzrə Tövsiyəsini , Nazirlər Komitəsinin CM/Rec(2010)7 üzv dövlətlərə Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları sahəsində Təhsil haqqında Xartiyası üzrə Tövsiyəsini, Nazirlər Komitəsinin Rec(2006)14 üzv dövlətlərə vətəndaşlıq və gənclərin ictimai həyatda iştirakı üzrə Tövsiyəsini, Nazirlər Komitəsinin Rec(2004)13 üzv dövlətlərə gənclərin yerli və regional həyatda iştirakı üzrə Tövsiyəsini, Nazirlər Komitəsinin Rec(2003)8 üzv dövlətlərə gənclərin qeyri-rəsmi təhsili/tədrisi üzrə Tövsiyəsini və Nazirlər Komitəsinin Decl(29/05/2019) gənclərin “Nifrət nitqinə yox” Hərəkatı kampaniyasının mirasına dair Bəyanatını qorumağa və gücləndirməyə ehtiyac olduğunu xatırladaraq;

Avropa Şurasının Uşaq Hüquqları üçün Strategiyasını (2016-2021), Avropa Şurasının Gender Bərabərliyi Strategiyasını (2018-2023), Avropa Şurasının Əlillik üzrə Strategiyasını (2017-2023), Roma və Sayahətçilərin İnkluziyası üzrə Tematik Fəaliyyət Planını (2016-2019), Avropa Şurası Parlament Assambleyasının dinlərinə görə insanlara qarşı küfr, dini təhqirlər və nifrət nitqinə dair 1805 (2007) saylı Tövsiyəsini və Avropa Şurasının internet idarəçiliyi və süni intellekt sahəsindəki işini nəzərə alaraq;

Xüsusən də “Avropa Şurası tərəfindən bu sahədə aparılan iş ilə gələcək sinerjilər təşviq edilməlidir” dediyi “Gənclər sahəsində Avropa əməkdaşlığı üçün çərçivə: Avropa İttifaqı Gənclər Strategiyası 2019-2027”yə dair Şurada bir araya gəlmiş Avropa İttifaqı Şurasının və üzv dövlətlərin hökumətlərinin nümayəndələrinin Qətnaməsini nəzərə alaraq;

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 25 sentyabr 2015-ci ildə qəbul etdiyi “Dünyamızda dəyişikliklər edək: Dayanıqlı İnkişafın 2030 Təqvimi” adlı A/RES/70/1 saylı Qətnaməni və Birləşmiş Millətlər Təşkilatının “Gənclər 2030: gənclərimizlə və onlar üçün birgə işləmə” adlı gənclər strategiyasını nəzərə alaraq;

Gənclər sahəsindəki bütün aidiyyəti beynəlxalq tərəfdaşların işi ilə xüsusilə də Avropa İttifaqı və Birləşmiş Millətlər ilə uyğunluğun və sinerjinin əldə edilməsinin vacibliyini qəbul edərək;

İstənilən demokratik cəmiyyətin dayanıqlığının onun gənclərinin yaradıcılığına, dinamizminə, sosial öhdəliyinə və səriştələrinə əsaslandığını xatırladaraq;

Avropa Şurası gənclər sektorunun və onun birgə idarəetmə sistemi, Strasburqdakı və Budapeştdəki Avropa Gənclər Mərkəzlərini, Avropa Gənclər Fondunu və gənclərin Avropada demokratiya və insan hüquqları dəyərlərinə cəlb edilməsi üçün Avropa Komissiyası ilə gənclər sahəsində tərəfdaşlığın da daxil olduğu vasitələrinin unikal coğrafi əhatə dairəsini və rolunu bir daha təsdiqləyərək;

Avropa Şurası üçün gənclərə məqsədyönlü şəkildə imkanlara əsaslanan yanaşma kimi məntiqli yolla xüsusən də üzv dövlətlərə Avropa Şurasının standartlarına uyğun olaraq gənclər siyasətinin inkişafında kömək edərək yatırım etməyin vacibliyini xatırlayaraq;

Gənclərin həm onlara təklif edilən imkanların olmaması həm də artan yoxsullaşma riskinin olmasına görə üzləşdikləri davamlı çağırışları nəzərə alaraq amma onların böyük potensialına və Avropa Şurasının əsas dəyərlərinin təşviqindəki həlledici rollarına inanaraq;

Avropa Şurası gənclər sektorunun 1972-ci ildən bəri Təşkilatın məqsədlərinə xüsusi töhfəsini və iqlim dəyişikliyi, süni intellekt və internet idarəçiliyi kimi yeni vəziyyətlərə və çağırışlara uyğun cavabları hazırlamaq bacarığını xüsusi olaraq vurğulayaraq;

Bu kontekstdə 2020-2030-cu illər üçün yeni strateji çərçivənin hazırlanmasının əhəmiyyətini vurğulayaraq;

Gənclər Məsələləri üzrə Birgə Şura tərəfindən 2019-cu ilin oktyabrında qəbul edilmiş Avropa Şurasının gənclər strategiyası 2030 üzrə baza sənədini qeyd edərək;

1. Avropa Şurası gənclər sektorunun bütün Avropadakı gənclərin Avropa Şurasının insan hüquqları, demokratiya və qanunun aliliyi kimi əsas dəyərlərini aktiv şəkildə müdafiə etməsi, dəstəkləməsi, təşviq etməsi və onlardan yararlanmalarına aşağıdakıları həyata keçirərək imkan verməsinə qərar verir:

- gənclərin və gənclərin vətəndaş cəmiyyətinin bütün formalarının konkret siyasətlər, mexanizmlər və qaynaqlar da daxil olmaqla bütün insan hüquqlarından və azadlıqlarından tam şəkildə faydalana bilmələrinə imkan verən mühitə güvənmələri üçün gənclərin hüquqlara çıxışının gücləndirilməsi;

- gənclərin demokratiyada iştirakının bilik və ekspertiza ortaya qoyan praktika icmaları tərəfindən dəstəklənməsi üçün gənclərin biliklərinin artırılması;

- gənclərin qərarların qəbul edilməsi prosesində geniş sosial və siyasi konsensus bazasında inkluziya, iştirakçı idarəçilik və məsuliyyət naminə anlamlı şəkildə iştirak etməsi üçün gənclərin iştirakının genişləndirilməsi;

2. Aşağıdakı elementlərin Avropa Şurasının gənclər sektoru strategiyası 2030 üçün tematik prioritetlər hesab edilməsinə və fəaliyyəti haqqında 2030-cu ilə qədər məlumat verməli olmasına qərar verir:

a. aşağıdakılara xüsusi diqqət ayıraraq demokratik plüralizmi canlandırma:

- üzvləri arasında və kənarda iştirakçı demokratiyanı və demokratik vətəndaşlığı irəlilətmək üçün gənclərin vətəndaş cəmiyyətinin bacarığını artırma;

- gənclərdən ibarət müxtəlif qrupları və onların təmsilçilərini/təşkilatlarını cəlb edərək mənalı və iştirakçı şəkildə daha çox siyasət və idarəçilik proseslərini həyata keçirmə;

- gənclərin iştirakı qarşısındakı maneələri aradan qaldıraraq gənclər siyasətini və gənclərlə işi gücləndirmə;

- gənclərin dəyişən iştirak modelləri, rəqəmsallaşma və internet idarəçiliyi kimi demokratiyadakı yeniliklərə təsisatların cavablarının yaxşılaşdırılması;

b. aşağıdakılara xüsusi diqqət ayıraraq gənclərin hüquqlara çıxışı:

- gənclərin hüquqlara çıxışı ilə bağlı Avropa Şurası standartlarının tətbiqindəki irəliləyişi davam etdirmə;

- insan hüquqları üzrə təhsil vermək və hüquqlara çıxışı təşviq etmək üçün gənclər təşkilatları və digər aidiyyati tərəflər üçün səriştə ərsəyə gətirmə və qaynaqların artırılması;

- gənclərin hüquqlarına və onların həddi-büluğa keçidlərinə mənfi təsir edən iqlim dəyişikliyi və ətraf mühitin pozulması, süni intellekt, rəqəmsal məkan, artmış mobillik və məşğulluğun yeni formaları kimi amma bunlarla məhdudlaşmayan yeni məsələlərə təsisatların cavablarını yaxşılaşırmaq;

c. aşağıdakılara xüsusi diqqət ayıraraq birlikdə sülhsevər və inkluziv cəmiyyətlərdə yaşama:

- həm müxtəlifliyi əhatə edən siyasətlər, proqramlar və layihələr vasitəsilə inkluziv cəmiyyətlər qurma həm də ayrı-seçkiliyi, şiddəti və cəmiyyətdən xaric edilməni səmərəli şəkildə monitorinq etmə çağırışlarına cavab vermək üçün tərəfləri yaxşı təchizatlandırma;

- ayrı-seçkiliyin və cəmiyyətdən xaric edilmənin hər hansı forması ilə üzləşən gənclərə demokratik vətəndaşlıq öhdəliyi götürmə və onu istifadə etməni inkişaf etdirən fürsətərdən yararlanmalarına imkan vermə;

- gənclik sektorunda və ondan kənarda Avropa birliyi, qlobal həmrəylik, sülh, müxtəliflik, mədəniyyətlərarası və nəsillərarası dialoq və ətraf mühitin dayanıqlığı kimi əsas bazaların mühüm şəkildə siyasətdə, praktikada və araşdırmada inteqrasiyası;

- şiddətin qarşısını almaq, münaqişəni dəyişdirmək və maliyyələşməyə tam dəstək verməklə, şəbəkələr qurmaqala və gənclərin tam müxtəlifliyini və özlərinin təşkilatçılığını tanımaqla sülh mədəniyyəti qurmaq üçün gənclərin bacarıqlarını, idarəetməsini və liderliyini gücləndirmə;

d. aşağıdakılara xüsusi diqqət ayıraraq gənclərlə iş:

- gənclərlə işi gənclər siyasəti çərçivələrinə xüsusən də Avropa gənclərlə iş təqvimi və onun tətbiqi vasitəsilə və Avropa İttifaqı ilə yaxından əməkdaşlıqla gənclərlə iş siyasətlərinin və praktikalarının gücləndirilməsi, tanınması;

- Həm könüllü həm də maaş alan gənc işçilər tərəfindən görülən gənclərlə işin keyfiyyətinin artırılması;

- daha geniş gənc əhali üçün gənclərlə işə və qeyri-rəsmi təhsilə/tədrisə çıxış və onların çəkiciliyini artırma;

3. Yuxarıda qeyd edilən prioritetlərin Avropa Şurasının gənclər önündə söz verdiyi qarşılıqlı hörmət və inam, inkluzivlik, dayanıqlı öhdəlik, iştirak, bərabərlik, şəffaflıq və əməkdaşlıq kimi prinsiplərlə dəstəklənməsinə qərar verir;

4. Yuxarıda qeyd edilən prioritetlərin aşağıdakı vasitələrlə həyata keçirilmələrinə qərər verir:

- pan-Avropa səviyyəsində hökumətlərarası əməkdaşlıq və Avropa Şurasının standartlarına əsaslanan gənclər siyasətinin hazırlanması və tətbiqi;

- ikitərəfli və çoxtərəfli dəstək tədbirləri vasitəsilə üzv dövlətlərdə gənclər siyasətinin hazırlanmasına yardım;

- xüsusən də Avropa Gənclər Mərkəzləri və onların təhsil və təlim proqramları vasitəsilə çoxaldıcı rolu oynayan gənclərin səriştəsinin ərsəyə gətirilməsi (gənc liderlər və gənc işçilər);

- Xüsusən də gənclər sahəsində bütün Avropada konsensusun, legitimliyin və çoxtərəfli mülkiyyətin inkişafı üçün əsas platforma və həmçinin siyasi və təsisatlararası əməkdaşlığın məkanı rolunu oynamalı olan və gəncləri və hökumət nümayəndələrini qərarlar vermək üçün bir araya gətirən birgə idarəetmə sistemi vasitəsilə yaxşı idarəçilik və gənclərin iştirakı;

- xüsusən də Avropa Gənclər Fondu vasitəsilə gənclərin vətəndaş cəmiyyətinin inkişafına maliyyə dəstəyi;

- gənclərlə işdə, gənclər siyasətində və gənclərlə bağlı araşdırmada innovasiya;

- gənclər sahəsində siyasi qərarvericilər, peşəkarlar və tədqiqatçılar arasında əməkdaşlıq;

- gənclər siyasəti sahəsində keyfiyyətin artırılması və standartların qoyulması;

- Avropa İttifaqı ilə əməkdaşlıq və Avropa Şurası gənclər sektorunu maraqlandıran sahələrdə işləyən digər tərəflər və xidmətlərlə tərəfdaşlıq;

- Avropa Şurası daxilində gənclərin cəlb edilməsi və departamentlər arasındakı əməkdaşlıq;

- problemlərlə üzləşən gənclərin proaktiv şəkildə tanınması və cəlb edilməsi;

- gələcək axınların, çağırışların və fürsətlərin öncədən görülməsi;

5. Hazırki strategiyanın Avropa Şurasının gənclər sektorunun bir-biriləri ilə bağlı və müstəqil olan aşağıdakı alətləri vasitəsilə həyata keçirilməli olmasına qərar verir:

- hazırki qətnaməyə əsaslanan fəaliyyət proqramlarını hazırlamalı olan və yeri gəldiyində Nazirlər Komitəsinə standartlarla bağlı təkliflər verən Avropa Şurası gənclər sektorunun birgə idarə edilən aidiyyatı qurumları;

- gənclərin Avropa əməkdaşlığının inkişaf etdirilməsi və gücləndirilməsi rollarında Avropa Şurasının əsas dəyərlərinə əsaslanaraq dəstəklənməyə davam etməli olan Avropa Gənclər Mərkəzləri və Avropa Gənclər Fondu;

- iki tərəfdaş arasında yaxşı əməkdaşlığın misalı olaraq dəstəklənməyə davam etməli olan Avropa Komissiyası ilə gənclər sahəsində tərəfdaşlıq;

6. Hazırki strategiyanın həyata keçirilməsinə və vaxtaşırı Avropa Şurasının ardıcıl proqramları və büdcələri vasitəsilə 2030-cu ilə qədər qiymətləndirilməsinə və Gənclər Məsələləri üzrə Birgə Şuranın buna uyğun olaraq onun tətbiq edilməsinin hesabatını verməli olmasına qərar verir.